https://doi.org/10.59849/2710-0820.2026.1.48

**Allahverdiyeva Fəridə**
*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun tədqiqatçısı, Bakı şəhəri, Orcid: 0000 0001 5322 3548*
*tagiyevaferide@gmail.com*

# XƏLİFƏ İBN XƏYYAT ƏL-USFURİNİN "KİTAB ƏT-TARİX" ƏSƏRİNDƏ AZƏRBAYCANA DAİR BƏZİ MƏLUMATLAR

**Giriş**

Xəlifə ibn Xəyyat hicri II əsrin sonu – III əsrin əvvəllərində yaşamış (müasir təqvim), hadisələri xronoloji ardıcıllıqla və isnad (rəvayət zənciri) prinsipi ilə təqdim edən tarixçilərdən biri olmuşdur. Onun bu metodu yalnız dini mətnlərin deyil, eyni zamanda tarixi hadisələrin də sənədləşdirilməsi baxımından yeni bir mərhələnin başlanğıcı hesab olunur. "Kitab ət-Tarix" əsəri bu mənada, həm İslam dünyasında tarix yazıçılığının təşəkkül tapmasını, həm də ilk İslam əsrlərində baş verən hadisələrin real mənzərəsini təqdim edən etibarlı mənbələrdən biri kimi qiymətləndirilir. Əsər xəlifələrin, səhabələrin və İslam ordularının fəaliyyəti, mühüm döyüşlər, siyasi dəyişikliklər və xilafət sərhədlərinin genişlənməsi ilə bağlı zəngin məlumatlar təqdim edir. Xəlifə ibn Xəyyatın xronikasında təkcə mərkəzi İslam bölgələri deyil, həm də kənar ərazilər – o cümlədən Cəzirə, Ərməniyyə və Azərbaycan kimi regionlar da ayrıca yer alır.

**Xəlifə Xəyyatın elmi irsi**

Xəlifə ibn Xəyyat əl-Usfuri İslam tarixinin ən tanınmış tarixçilərindən biri olaraq, öz xronoloji yanaşması və tarixi hadisələrin dəqiq təsviri ilə ərəb-İslam tarixşünaslığında mühüm yer tutur. Onun həyatı, əsərləri və elmi fəaliyyəti haqqında geniş məlumat verməklə, həmçinin dövrünün siyasi və intellektual mühitini təsvir etməklə, onun əhəmiyyətini daha yaxşı anlamaq mümkündür. Xəlifə ibn Xəyyat əl-Usfuri 778-ci ildə (hicri 162-ci il) Bəsrə şəhərində anadan olmuşdur. O, Qüreyş qəbiləsinin bir qoluna mənsub idi və bu nəsil öz dövründə elmi sahədəki uğurları ilə tanınırdı. "əl-Usfuri" nisbəsi onun mənsub olduğu Usfər qəbiləsini göstərir. Xəlifə ibn Xəyyatın əsərlərini sayı haqqında tarixdə müxtəlif fikirlər vardır. Lakin İbn Nədimə görə onun beş əsəri olmuşdur. Ancaq onlardan ikisi "Tarix" və "Tabaqat" əsərləri dövrümüzə qədər gəlib çatmışdır. [Ağayev.s. 20, 2018]

Elm təhsili məqsədilə səyahət etməmiş və ya çox az səyahət etmiş olan Xəlifə, ailə üzvlərindən və Basra şəhərindəki alimlərdən, xüsusilə qiraət başda olmaqla Qurani-Kərim elmlərini, hədisi, əxbər və ənsab elmlərini öyrənmiş və hədis rəvayət etmişdir. Xətib əl-Bağdadinin *Tarixu Bağdad* əsərində adının qeyd olunmamasından onun Bağdada heç getmədiyi anlaşılır. O, Qurani-Kərimin qiraətini Vərqa b. Amr və Əbu Amr b. Əlaʾdan rəvayət etmiş, ondan isə Əhməd b. İbrahim b. Osman əl-Vərrəq və Muğirə b. Sadəqə qiraət elminə dair məlumatlar rəvayət etmişlər.

Xəlifənin hədis öyrəndiyi şeyxlər arasında başda atası olmaqla İsmail b. Üleyyə, Abdurrahman b. Mehdi, Süfyan b. Uyeynə, Yəhya b. Səid əl-Qəttan, Müʿtəmır b. Süleyman və Əbu Davud ət-Tayalisi kimi alimlər yer alır. Ondan hədis rəvayət edən mühəddislər sırasında isə Buxari, Bəqi b. Məxləd, İbn Əbu Asım, Abdullah b. Əhməd b. Hənbəl, Əbu Yaʿla əl-Məvsili, Abdullah b. Abdurrahman əd-Darimi, Abdan əl-Cəvaliqi əl-Əhvazi və Zəkəriyya əs-Səcd də vardır.

Zəhəbi bəzi hədis alimlərinin Xəlifənin hədis rəvayətində zəif olduğunu bildirmələrini doğru hesab etməmiş və onu *siqa* qəbul edən alimlərin mövqeyini dəstəkləmişdir. Xəlifənin günümüzə qədər gəlib çatan iki əsərini nəşrə hazırlayan Əkrəm Ziya əl-Ömərı də onun Buxari tərəfindən *siqa* ravi kimi qəbul edildiyini bildirmiş, *ət-Tarixu'l-kəbir* əsərində Xəlifə haqqında müsbət və ya mənfi bir ifadənin işlədilmədiyini qeyd etmişdir.

Buna qarşılıq İbn Həcər əl-Əsqəlani, Buxarinin Xəlifədən hədis rəvayət edərkən bunu ya başqa bir sənədlə təsdiqlədiyini, ya da onun rə-

vayətlərini *mualləq* şəkildə verdiyini bildirmişdir (İbn Həcər əl-Əsqəlani, *Təhzibu't-Təhzib*, c. 3, s. 161). Bu məsələni araşdıran Əkrəm Ziya əl-Öməri, Buxarinin *əl-Cami'u's-səhih* əsərində Xəlifəyə aid on səkkiz ayrı rəvayətin mövcud olduğunu, bunlardan on beşinin İbn Həcərin müəyyən etdiyi xüsusiyyətlərə uyğun gəldiyini, üç rəvayətdən ikisinin isə Buxarinin Xəlifəni *siqa* qəbul etdiyini göstərən açıq dəlil olmadığını bildirmişdir. Lakin qalan bir yerdə Buxarinin birbaşa və həm də əqidə mövzusu ilə bağlı bir hədisi (*Buxari*, "Tövhid", 55) ondan rəvayət edərək əsərinə daxil etdiyini müəyyən etmiş və nəticə olaraq Buxarinin Xəlifəni ən ön sıradakı şeyxlərindən biri kimi olmasa da, *siqa* bir ravi kimi qəbul etdiyini qənaətinə gəlmişdir (Xəlifə b. Xəyyat, *ət-Tarix*, nəşr. Öməri, naşirin müqəddiməsi, ss. 8–9). [Fayda. s.301.1997]

Əsrlər boyu Bəsrə, elm və mədəniyyət mərkəzi olaraq tanınmış və Xəlifə ibn Xəyyatın elmi dünyagörüşünün inkişafında böyük rol oynamışdır. Lakin onun vəfatı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Ancaq orta əsr müəlliflərinin böyük əksəriyyəti əl-Usfurinin h.240 (854) cü ildə etdiyini qeyd etmişlər. [Xəlifə Xəyyat .s.628. 1985]

Xəlifə bin Xəyyat dövrünün nüfuzlu alimlərindən dərs almış, həm dini, həm də tarixi biliklərə dərindən yiyələnmişdir. O, xüsusilə hədis, fiqh və tarix elmləri ilə məşğul olmuşdur. Onun əsərlərində İslam tarixçiliyində istifadə edilən isnad sistemi və xronoloji metodun əsasları açıq şəkildə görünür. O, məşhur hədis və tarix alimlərindən dərs almışdır. Onun sələfləri arasında İbn Sədd, Vaqidi və digər Abbasi dövrünün tanınmış tarixçiləri var idi. Öz növbəsində, onun tələbələri arasında sonrakı tarixçilərə böyük təsir göstərmiş şəxslər olmuşdur. Xəlifə bin Xəyyatın metodları və yanaşmaları daha sonrakı tarixçilərin işlərinə istiqamət vermişdir. Əz-Zəhəbi bəzi hədis alimlərinin Xəlifə ibn Xəyyatın hədisləri nəql etməkdə ləng olduğunu iddialarını düzgün hesab etməmiş və onu mötəbər qəbul edən alimlərin fikirləri ilə razılaşmışdır.

Xəlifə bin Xəyyat İslam tarixçiliyinin inkişafında mühüm rol oynamışdır. Onun ən məşhur əsərləri "Kitab ət-tarix" və "Təbaqat" əsərləridir. Müəllif "Tarih" (Tarix kitabı) əsərində İslam tarixini xronoloji qaydada təqdim etmiş və hadisələri isnad sistemi ilə təsdiqləməyə çalışmışdır. Bu kitab İslam tarixinin erkən mənbələrindən biri hesab edilir. "Təbəqat" (əsəri bioqrafik məlumatları ehtiva edir və alimlər, siyasi liderlər haqqında ətraflı məlumatlar təqdim edir). Onun tarixçilik yanaşması, hadisələri isnadlarla təqdim etməsi və xronoloji metodundan istifadə etməsi İslam tarix yazıcılığında əhəmiyyətli bir mərhələ olmuşdur. Daha sonrakı tarixçilər, o cümlədən Təbəri, İbn Kəsir və İbn Xaldun onun metodlarından bəhrələnmişlər. Maraqlıdır ki, dövlət daxilində baş verən hadisələrdən daha çox müharibə və fəthlərə yer verən müəllif Əməvilər dövründən geniş bəhs etdiyi əsərində şəxsən şahidi olduğu Abbasilər dövrünü qısaca təsvir edir. Xəlifə b. Xəyyat əsərində İslam fəthləri rəsmi rəvayət sayılan Mədinə əhlinin rəvayətləridir. Məsələn, Misirin fəthi ilə bağlı rəvayətlər əvvəlcə misirli İbn Lahiyə və başqalarından, sonra isə Mədinə əhalisindən Urvə b. Zübeyr rəvayət etmişdir. "Təbəqətü'r-ruvət" əsərində izlədiyi üsulun əksinə olaraq, ət-Tarix-də rəvayətlər üçün silsilələri qeyd edir. Hədis rəvayətində nisbətin vacibliyini çox yaxşı bilən Xəlifə b. Xəyyat tarix sahəsində geniş yayılmış anlayışı mənimsəmiş, ondan daha sərbəst istifadə etmişdir. Bu səbəbdən hədis rəvayətində münqati və mürsəl sənədlərlə yanaşı, islah və düzəlişlərə məruz qalan bəzi şəxslərin rəvayətlərini götürməkdə bir qüsur görməmiş, İbn əl-Kəlbi və Vaqidi kimi müəlliflərin rəvayətlərini nəql etməkdən çəkinməmişdir. Xəlifə bin Xəyyat Abbasi dövrünün ən mühüm tarixçilərindən biri olmuşdur. Onun tarixi və bioqrafik əsərləri İslam tarixinin erkən dövrlərinin öyrənilməsində əvəzsiz mənbələrdən hesab olunur. O, İslam tarixçiliyinə yeni metodoloji yanaşmalar gətirmiş və elmi dünyaya böyük töhfələr vermişdir.

**Xəlifə bin Xəyyatın "Tarix" əsəri Azərbaycan haqqında**

Azərbaycanın coğrafi mövqeyi, strateji əhəmiyyəti, iqtisadi potensialı və etno-mədəni müxtəlifliyi səbəbilə ərəb xilafətinin diqqətini erkən dövrlərdən cəlb etdiyi məlumdur. Bu səbəbdən, "Kitab ət-Tarix" əsərində Azərbaycanın fəthi, bu ərazidə baş verən hərbi-siyasi hadisələr və xilafətə inteqrasiya prosesi də xronoloji ardıcıllıqla və müxtəlif mənbələrə əsaslanaraq sənədləşdirilmişdir. Azərbaycanın İslam xi-

lafətinə qoşulması təkcə hərbi zəfərlərlə deyil, həm də inzibati dəyişikliklər, yerli əhali ilə bağlanan sülh müqavilələri və bu prosesin sosial-mədəni nəticələri ilə müşayiət olunmuşdur. Xəlifə ibn Xəyyat bu hadisələri qeyd etməklə yanaşı, Azərbaycanın müxtəlif bölgələrinin – Bərdə, Beyləqan, Ərdəbil, Bələncər və s. – xilafət orduları ilə qarşılıqlı münasibətlərinə də işıq salır. Əsərdə həmçinin Xəzərlərlə müharibələr, türklərin hücumları, müsəlman sərkərdələrinin apardığı hərbi əməliyyatlar və nəticə etibarilə Azərbaycanın siyasi xəritəsində baş verən dəyişikliklərə dair mühüm məlumatlar yer alır. Bu məqalənin əsas məqsədi, Xəlifə ibn Xəyyatın "Kitab ət-Tarix" əsərində Azərbaycanla bağlı təqdim olunan tarixi məlumatları sistemli şəkildə təhlil etmək, onların elmi dəyərini müəyyənləşdirmək və erkən İslam dövründə Azərbaycanın İslam dünyasındakı mövqeyini araşdırmaqdır. Məqalədə öncə müəllifin elmi şəxsiyyəti, əsərinin ümumi xarakteri və metodologiyası nəzərdən keçiriləcək, daha sonra Azərbaycanla bağlı verilmiş tarixi məlumatlar kontekstual və mənbəşünaslıq baxımından təhlil ediləcəkdir.

Azərbaycan tarixinin Ərəb Xilafəti dövrü ilə bağlı ilkin qaynaqlardan biri Xəlifə ibn Xəyyat əl-Usfurinin "Tarixi Xəlifə bin Xəyyat" adlı əsəridir. Əsərdə ərəblərin Azərbaycana yürüşləri, Azərbaycanın hüdudları və ərəblərin həyata keçirdiyi köçürmə siyasəti haqqında maraqlı məlumatlara rast gəlinir. Çox təəssüf ki, adı çəkilən əsər Vətən tarixşünaslığında ən zəif öyrənilmiş əsərlərdəndir. [Şərifov.s.15.2022]

642-ci ildə ərəb ordularının Azərbaycana daxil olması haqqında ilk məlumat orta əsr ərəbdilli müəlliflərdən olan Xəlifə ibn Xəyyat əl-Usfuri tərəfindən verilmişdir. Əl-Usfurinin verdiyi məlumatlardan aydın olur ki, Azərbaycan Kufə əhlinin yardımı ilə Şam əhli tərəfindən fəth edilmişdir. [Şərifov.s 112.2022]

Onun əsərlərində Azərbaycanın fəthi ilə bağlı bir çox tarixi məqamlar əks etdirilir.O, h.22-ci (miladi ) ildə baş verən hadisələrdən bəhs edərkən yazır:

**وفيهَا فتحت أذربيجان. حَدَّثَنَا عَن ابْن إِسْحَاق قَالَ: فتحت سنة اثْنَتَيْنِ وَعشْرين أَمِيرهمْ الْمُغيرَة ابْن شُعْبَة حَدَّثَنَا عَلِيّ بْن مُحَمَّد قَالَ: صَالحهمْ حُذَيْفَة سنة اثْنَتَيْنِ وَعشْرين عَلَى ثَمَان مائَة ألف وَقَالَ أَبُو عُبَيْدَة: افتتحها حبيب بْن مسلمة الفِهري بِأَهْل الشَّام عَنوة وَمَعَهُمْ أهل الْكُوفَة فِي خلَافَة عُمَر وَمَعَهُمْ حُذَيْفَة بعد قتال شَدِيد وَيُقَال: افتتحها عتبَة بْن فرقد حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ قَالَ نَا التَّيْمِيّ عَن أَبِي عُثْمَان قَالَ جَاءَنَا كتاب عُمَر وَنحن مَعَ عتبَة بْن فرقد وَمن سبي أذربيجان آل عَبْد اللَّهِ وَيحيى ابْني إِسْحَاق الْحَضْرَمِيّ وَآل ابي الْعَالِيَة الْكَاتِب**

Tərcümə:

**فتح جرجان. وفيهَا غزا سعيد بْن الْعَاصِ جرجان: وَيُقَال سنة ثَلَاثِينَ فافتتحها.**

**فَحَدثني الْوَلِيد بْن هِشَام عَن أَبِيه عَن جده قَالَ: ضرب سعيد بجرجان رجلا عَلَى حَبل عَاتِقه فَأخْرج السَّيْف من مرفقه.**

**وَقَالَ أَبُو عُبَيْدَة: وانتفضت أذربيجان أَيْضا فغزاهم سعيد بْن الْعَاصِ فافتتحها: وفيهَا وسع عُثْمَان مَسْجِد رَسُولِ اللَّهِ صلى الله عليه وسلم**

**سنة ثَلَاثِينَ**

Cürcanın fəthi

Bu il Səid ibn əl-As Cürcana yürüş etdi. Deyilir ki, onu 30-cu ildə fəth etmişdir.

Əl-Vəlid ibn Hişam mənə atasından, o da babasından rəvayət etdi ki: "Səid Cürcanda bir kişiyə çiyninin vətərindən qılınc zərbəsi endirdi, qılınc onun dirsəyindən çıxdı."

Əbu Ubeydə dedi: "Azərbaycan da üsyan etdi, Səid ibn əl-As onların üzərinə yürüdü və oranı yenidən fəth etdi. Elə həmin ildə Osman (Allah ondan razı olsun) Allah Rəsulunun (s.ə.s) məscidini genişləndirdi."

Həmin ildə Xaqanın oğlu Azərbaycana hücum etdi.

Əbu Xalid, Əbu Bəraədən belə rəvayət edir:

108-ci ildə Xaqanın oğlu Martik Azərbaycana yürüş etdi. O, Varsan (indiki Daşburun) şəhərini mühasirəyə aldı və mancanaqlarla atəşə tutdu. Bu xəbər Haris ibn Amra çatdı. O, hərəkət edib Vərsənin üst tərəfindən ər-Rassın (qarşısını) kəsdi.. Bu xəbər Xaqanın oğluna çatanda, o, Harisin üstünə gəldi. Onlar qaşılaşdılar. Allah Xaqanın oğlunu və qoşununu məğlub etdi, onlardan çoxunu öldürdü. Həmin döyüşdə Haris ibn Amr da öldürüldü (Allah ona rəhmət etsin). [Xəlifə İbn Xəyyat əl Usfuri s.338. 1985]

Hicri 112-ci ildə baş verən hadisələrdən bəhs edən İbn Xəyyat əl-Cərrahın Azərbaycandakı fəaliyyətindən də bəhs edir:

**وفيهَا زحف الْجراح من برذعة سنة أثنتي عشرَة وَمِائَة فَقدم أذربيجان فَعَسْكَرَ فِي مرج سبلان وَبهَا نهر فعقد عَلَيْهِ جِسْرًا فَهُوَ الْيَوْم يدعى جسر الْجراح.**

**قَالَ أَبُو خَالِد قَالَ أَبُو برَاء: زحف الْجراح سنة اثْنَتَيْ عشرَة إِلَى ابْن خاقَان وَهُوَ محاصر أهل أردبيل فَاقْتَتلُوا قتالا شَدِيدا فَقتل الْجراح رحمه الله لثمان بَقينَ من شهر رَمَضَان سنة أثنى عشرَة ومائه وغلبت الخزر عَلَى أذربيجان وساحت خيولهم حتي بلغُوا قَرِيبا من الْموصل ونصبوا عَلَى أردبيل المجانيق وَأهل أردبيل يقاتلونهم فَلَمَّا طَال عَلَيْهِم الْحصار أسلموها ودخلها الخزر فَقتلُوا الْمُقَاتلَة وَسبوا الذُّرِّيَّة**

Həmin ildə əl-Cərrah Bərdədən hərəkət edərək Azərbaycana gəldi və Savalan çəmənliyində düşərgə saldı, buradan keçən çay üzərində körpü qurdu. İndi bu körpü “Cisri əl-Cərrah” (əl-Cərrah körpüsü) adlanır Əbu Xalid, Əbu Bəraədən belə rəvayət edir: Cərah hicri 112-ci ildə İbn Xaqana qarşı yürüş etdi. O zaman İbn Xaqan Ərdəbil əhalisini mühasirəyə almışdı. Onlar ağır döyüşə girdilər. Cərah (Allah ona rəhmət etsin) həmin ilin Ramazan ayının sonuna, səkkiz gün qalmış, şəhid oldu. Bundan sonra xəzərlər Azərbaycana hakim oldular. Onların atlı dəstələri Mosula yaxın yerlərə qədər gəlib çıxdı. Ərdəbil üzərinə mancanaqlar (daşatanlar) qurdular. Ərdəbil əhalisi xəzərlərlə vuruşurdu, lakin mühasirə uzandığı üçün şəhəri təslim etdilər. Xəzərlər şəhərə daxil olub döyüşçüləri öldürdülər, qadın-uşaqları əsir aldılar. [Xəlifə İbn Xəyyat əl Usfuri s.342. 1985].

Sözlərin davam edən müəllif yazır:

**قَالَ أَبُو خَالِد: قَالَ أَبُو الْخطاب: حَدَّثَنِي رجل من بَنِي سليم قَالَ: قتل الْجراح بأرشق قَالَ أَبُو الْخطاب: لما قتل الْجراح وَجه هِشَام بْن عَبْد الْملك سعيد بْن عَمْرو الْحَرَشِي وَوجه مَعَه فرسَان الْعَرَب عَلَى الْبَرِيد فَمضى سعيد بْن عَمْرو حَتَّى قدم برذعة عَلْقَمَة الثَّقَفِيّ عَن شيخ من أهل حمص قَالَ حَدَّثَنِي ثبيت البهراني قَالَ قدم علينا الْحَرَشِي برذعة عَلَى دَوَاب الْبَرِيد فسرنا مَعَهم إِلَى البيلقان ومضوا نَحْو أذربيجان وَأَقْبل عَسْكَر للخزر مَعَهم عجل كثير عَلَيْهَا سَبَايَا الْمُسلمين والغنائم من أهل أردبيل**

Əbu Xalid, Əbu Xəttabdan belə rəvayət edir:

Bəni Süləmdən olan bir adam mənə dedi: “Cərah Ərşəqdə öldürüldü.” Əbu Xəttab dedi: “Cərah öldürüləndə, Hişam ibn Əbdülməlik Səid ibn Amr əl-Hərəşini göndərdi. Onunla birlikdə ərəb süvarilərini də poçt atları (bürid) ilə yola saldı. Səid ibn Amr gedib Bərdəyə çatdı.”

Əlqəmə əs-Səqəfi, Homs əhlinin yaşlılarından biri olan Sübeyt əl-Bəhranidən belə rəvayət edir: “Əl-Hərşi poçt heyvanları ilə Bərdədə yanımıza gəldi və biz də onlarla birlikdə Əl-Beyləqana getdik və Azərbaycana keçdik. (Bu zaman) xəzər ordusu Ərdəbil əhalisindən müsəlman əsirləri və qənimətləri daşıyan çoxlu dəvə sürüsü ilə gəldi. [Xəlifə İbn Xəyyat əl Usfuri.s.24.1985]

Azərbaycanın fəthi, yalnız hərbi bir hadisə deyil, həm də sosial və mədəni dəyişikliklərə səbəb olmuşdur. Xəlifə ibn Xəyyat, xüsusilə Azərbaycan ərazisindəki müharibələri və bu mübarizələrin siyasi nəticələrini təhlil edir.

Xəlifə ibn Xəyyatın yazdıqlarına əsasən, Azərbaycanın fəthi təkcə hərbi fəthlərlə deyil, həm də mədəni və sosial inteqrasiya ilə bağlıdır. Bu dövrün hadisələri, yalnız hərbi döyüşlər deyil, həm də xalqlar arasında əlaqələrin və mədəniyyətlərin qarşılıqlı təsirini göstərir. [Fuat Sezgin. s.125.2010]

Xəlifə ibn Xəyyat əl-Usfurinin “Kitab ət-Tarix” əsəri yalnız erkən İslam tarixinin xronikasını təqdim edən bir mənbə deyil, həm də müxtəlif bölgələrdə, o cümlədən Azərbaycanın tarixi inkişafını izləmək baxımından mühüm əhəmiyyət kəsb edən bir tarixşünaslıq nümunəsidir. Müəllifin hadisələri xronoloji ardıcıllıqla və isnad metodu əsasında qeyd etməsi, onun təqdim etdiyi məlumatların elmi etibarlılığını artırır və bu xüsusiyyət, onu orta əsr ərəb tarixçiləri arasında fərqləndirən əsas cəhətlərdən biridir.

Əl-Usfurinin əsərində Azərbaycan ərazisində Ərəb xilafətinə qarşı baş vermiş çıxışlardan da ötəri şəkildə, bəhs olunmuşdur. Məsələn, o, h.128-ci (746-cı) ildə Azərbaycanda Bəni Zeyd nəslindən ibn Leys kimi tanınan Bistam əs-Səaləbinin mərkəzi hakimiyyətə qarşı çıxışı haqqında qısa məlumat vermişdir. O, Xürrəmilər hərakatı haqqında ətraflı şəkildə bəhs etməmiş və yalnız 222-ci (837-ci) ildə Babəkin Afşin tərəfindən məğlub edilərək əsir alındığını bildirməklə kifayətlənməmişdir. Beləliklə, əl-Usfurini “Tarix” əsəri Azərbaycanın Ərəb xilafəti dövrü tarixini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Onun əsərində Azərbaycanın hüdudları, əhalisi, şəhərləri, ərəblərin ölkəyə yürüşləri, Azərbaycanın fəthi, ərəb-xəzər müharibələri, Ərəb xilafətinə qarşı baş vermiş hərakatlar haqqında qısa, lakin maraqlı məlumatlara rast gəlinir. [Ağayev s. 24. 2018]

Əsərdə Azərbaycanla bağlı verilən məlumatlar, bu regionun İslam xilafətinə inteqrasiyası prosesini izləmək üçün zəngin tarixi faktlar təqdim edilir. Xəlifə ibn Xəyyat Azərbaycanın fəthini sadəcə hərbi ekspedisiya kimi deyil, həm də sosial, inzibati və iqtisadi transformasiya kontekstində təsvir etmişdir. Hicri I və II əsrlərdə baş verən hadisələr fonunda Azərbaycanın müxtəlif şəhərlərinin Bərdə, Beyləqan, Ərdəbil və s. fateh ərəb sərkərdələrinin yürüşlərinə məruz qalması, bu ərazilərdə bağlanan sülh müqavilələri və xərac müqabilində əldə olunan sabitlik müəllif tərəfindən dəqiqliklə qeyd olunmuşdur.

Əsərdə həmçinin regionda baş verən sonrakı proseslər, xüsusilə Xəzər hücumları, türklərlə toqquşmalar, xilafətin hərbi müdaxilələri və mərkəzi hakimiyyətə qarşı yönəlmiş üsyanlar kontekstində Azərbaycan ərazilərinin strateji əhəmiyyəti ön plana çəkilir. Bu çərçivədə Babək Xürrəmi hərəkatı və onun Afşin tərəfindən məğlubiyyəti ilə nəticələnən hadisələrə də istinad edilməsi, əsərin həmin dövrdəki siyasi sabitlik və idarəetmə mexanizmləri barədə qiymətli məlumatlar ehtiva etdiyini təsdiqləyir.

Xəlifə ibn Xəyyatın təqdim etdiyi məlumatlar göstərir ki, Azərbaycanın İslam xilafətinə tabe edilməsi təkcə hərbi müstəvidə baş verməmiş, eyni zamanda uzunmüddətli mədəni, inzibati və dini inteqrasiyanı da əhatə etmişdir. Ərəb-müsəlman mədəniyyətinin bu coğrafiyada yayılması, həm yerli ictimai strukturda, həm də iqtisadi-ticarət münasibətlərində yeni dinamikaların formalaşmasına səbəb olmuşdur.

Erkən İslam tarixçilərinin regionlara dair verdikləri məlumatlar, yalnız siyasi hadisələri deyil, həm də həmin ərazilərin xilafət daxilində tutduğu funksional mövqeyi anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycan haqqında erkən mənbələrdə yer alan məlumatların müqayisəli təhlili, bu ərazinin İslam dünyasına daxilolma prosesinin mərhələlərini daha aydın şəkildə izləməyə imkan verir. “Kitab ət-Tarix” əsəri bu baxımdan, regional tarixlə ümumi İslam tarixi arasında əlaqəni ortaya qoyan mühüm tarixşünaslıq nümunəsidir. Aparılan təhlil göstərir ki, Xəlifə ibn Xəyyat əl-Usfurinin “Kitab ət-Tarix” əsəri erkən İslam dövründə Azərbaycanın siyasi, hərbi və inzibati tarixinin öyrənilməsi üçün fundamental əhəmiyyətə malik mənbələrdən biridir. Müəllifin xronoloji ardıcıllıq və isnad metodu əsasında təqdim etdiyi məlumatlar, regionun xilafət sisteminə inteqrasiyasının çoxşaxəli xarakter daşıdığını göstərir.

Nəticə etibarilə, “Kitab ət-Tarix” əsəri yalnız ümumi İslam tarixinin deyil, həm də Azərbaycan tarixinin erkən mərhələlərinin obyektiv şəkildə araşdırılması üçün etibarlı elmi baza yaradır. Bu əsər, digər erkən mənbələrlə müqayisəli şəkildə istifadə edildikdə, Azərbaycanın erkən orta əsr tarixinin daha dolğun və sistemli şəkildə öyrənilməsinə imkan verir.

Xəlifə ibn Xəyyat əl-Usfurinin “Kitabət-tarix” əsəri Azərbaycan tarixinin erkən İslam dövrünü sənədli və xronoloji ardıcıllıqla təqdim edən əsas mənbədir. Əsər fəthlər, döyüşlər, üsyanlar və sosial hadisələri dəqiq tarixlər üzrə əks etdirərək Azərbaycan tarixinin sistemli öyrənilməsinə imkan yaradır. Məqalədə ortaya çıxan elmi yeniliklər isə ilkin mənbələrə əsaslanan məlumatların təsdiqi, xronoloji ardıcıllığın tətbiqi və sosial-hərbi hadisələrin elmi şəkildə təqdim olunmasıdır.

## ƏDƏBİYYAT

Ağayev.R (2018). *Xəlifə ibn Xəyyat əl-Usfurinin “Tarix” əsərində Azərbaycan*. Bakı.

İbn Xəyyat, X. (n.d.). *Kitāb al-Tārīkh*. Dār al-Maʿārif.

Sezgin Fuad. (2010). *İslam bilim tarihi*. İstanbul.

Şərifov (2022). *Erkən dövrdə Azərbaycanda ictimai-siyasi və mədəni həyat*. Bakı.

Zeyneloğlu, C. (1924). *Muhtasar Azerbaycan tarihi*. İstanbul

Fayda.M. Halife. Hayyat Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi:Hades-Hanefi Mehmet Efendi Ankara: TDV, 1997

**Резюме**

**Фарида Аллахвердиева**

**Некоторые сведения об истории Азербайджана в труде Халифы ибн Хаййата аль-Усфури «Китаб ат-Тарих»**

Данная статья посвящена анализу сведений о политической, военной и административной истории Азербайджана в ранний исламский период, представленных в труде «Китаб ат-Тарих», написанном арабским историком IX века Халифой ибн Хаййатом аль-Усфури. В ходе исследования установлено, что автор, применяя хронологическую последовательность и метод иснада, изложил ценные и достоверные факты о подчинении Азербайджана халифату в I–II веках по хиджре, военных походах, мирных соглашениях, административных преобразованиях и арабо-хазарских отношениях.

В статье особое внимание уделяется стратегическому и экономическому значению территории Азербайджана, политическим изменениям, произошедшим в результате мусульманских походов, а также связи этих процессов с политикой центрального халифата. Сведения, представленные в «Китаб ат-Тарих», доказывают, что Азербайджан играл важную роль не только как завоёванная территория, но и как фактор обеспечения геополитической стабильности на северо-восточных границах халифата. Полученные результаты показывают, что труд «Китаб ат-Тарих» является одним из фундаментальных источников для изучения ранней исламской истории Азербайджана. Содержание произведения представляет интерес не только для историков, но и для специалистов в области арабистики, источниковедения, военной истории и цивилизационных исследований.

***Ключевые слова:*** *Халифа ибн Хаййат, Китаб ат-Тарих, история Азербайджана, арабские завоевания*

**Summary**

**Farida Allahverdiyeva**

**Some Information on the History of Azerbaijan in the Work “Kitab at-Tarikh” by Khalifa ibn Khayyat al-Usfuri**

This article aims to analyze the information presented in the work Kitab at-Tarikh, written by the 9th-century Arab historian Khalifa ibn Khayyat al-Usfuri, regarding the political, military, and administrative history of Azerbaijan during the early Islamic period. The research reveals that this work, composed using a chronological order and the isnad (chain of transmission) method, offers valuable and reliable data on the subjugation of Azerbaijan to the caliphate in the 1st–2nd centuries AH, military campaigns in the region, peace treaties, administrative reforms, and Arab-Khazar relations.

The article specifically focuses on the strategic and economic significance of the Azerbaijani territory, the political changes brought about by Muslim military campaigns, and how these developments were linked to the central caliphate’s policies. The information in Kitab at-Tarikh demonstrates that Azerbaijan was not merely a conquered land, but played a vital role in maintaining geopolitical stability along the northeastern frontiers of the caliphate. The findings indicate that Kitab at-Tarikh is one of the essential and foundational sources for studying the early Islamic history of Azerbaijan. Its content holds significance not only for historians but also for scholars in the fields of Arab studies, source criticism, military history, and civilizational research.

***Keywords:*** *Khalifa ibn Khayyat, Kitab at-Tarikh, History of Azerbaijan, Arab conquests*